AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTU

# DİLÇİLİK ARAŞDIRMALARI

BEYNƏLXALQ ELMİ JURNAL
İNTERNATIONAL SCIENTIFIC JOURNAL
МЕЖДУНАРОДНЫЙ НАУЧНЫЙ ЖУРНАЛ

№ 2

BAKI – 2021

# AZƏRBAYCAN SEVDALISI ŞÜKRÜ HALUK AKALIN

*ŞÜKRÜ HALUK AKALIN-65*

Əziz dostum, sevimli qardaşım Türkiyənin adlı-sanlı dilçi-türkoloq alimlərindən olan Prof. Dr. Şükrü Halük Akalınla ilk əyani tanışlığım 2007-ci ildə baş tutmuşdur. Həmin il qardaş ölkənin paytaxtı Ankarada Beynəlxalq Konfrans (İCANAS-38) keçirilirdi və hörmətli Prof. Dr. Şükrü Halük Akalın da Türk Dil Qurumunun başqanı kimi bu mötəbər tədbirin iclaslarından birində iştirak edirdi. İclaslar arasında Halük bəylə tanış olduq və bu tanışlıq həm davamlı, həm də hər ikimiz üçün yaddaqalan və faydalı oldu. Qeyd edim ki, həmin vaxt mən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda şöbə müdiri vəzifəsində çalışırdım...

2012-ci ilin oktyabr ayında Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən "Əsrlərin yadigarları olan türkdilli kitab" mövzusunda Beynəlxalq konfransda da Ş.H.Akalınla bərabər iştirak etdik...

2016-cı ilin əvvələrində AMEA İmadəddin Nəsimi adına Dilçilik İnstitutunun direktoru vəzifəsinə təyin olundum və çox keçmədi ki, günlərin birində Türkiyə Cümhuriyyıtinin Hacəttəpə Universitetinin Lüğətçilik bölümünün başqanı Dr. Prof. Dr. Şükrü Halük Akalından bir məktub aldım. Könlümə böyük sevinc bəxş edən və heç vaxt unutmağa haqqım olmayan bu məktubda Ş.H.Akalın yeni vəzifəmlə bağlı səmimi təbriklərini çatdırmaqla yanaşı, məni həmin ilin aprel-may aylarında Hacəttəpə Universitetinə "Azərbaycan lüğətçiliyi" mövzusunda çıxış etməyə dəvət edirdi. Bu dəvət 2016-cı ilin may ayının 10-da gerçəkləşdi və mən böyük məmnunluq duyğuları ilə Hacəttəpə Universitetinə getdim. Türkiyənin dünyaca məşhur bu Universitetində olduğum günləri ömrüm boyu unuda bilmərəm. Birincisi, bura gəlişimin ertəsi günü Universitetin Ədəbiyyat fakültəsinin böyük iclas salonunda professor-müəllim heyəti və tələbələr qarşısında "Azərbaycan lüğətçiliyinə bir baxış" mövzusunda çıxış etdim. Tədbirin əvvəlində Şükrü bəy məni görüş iştirakçılarına təqdim etdi: tərcümeyi-halımın, elmi fəaliyyətimin bəzi məqamlarını xatırlatdı. Onu deyim ki, tədbirə Ankaranın digər Universitetlərindən də gələnlər var idi. Onlardan biri Qazi Universitetinin professoru – ellimiz mərhum Mehman Musaoğlu idi. İndi Haqq dünyasına qovuşan Mehman müəllim vaxtilə Dilçilik İnstitutunda çalışmışdı və artıq neçə illər idi ki, qardaş Türkiyədə pedaqoji fəaliyyətini davam etdirirdi. Tədbirdə iştirak edən tələbələr sırasında azərbaycanlılar da var idi. 2 saata yaxın davam edən tədbir bir sıra maraqlı anlarla yadda qaldı. Çıxışımın sonunda tədbir iştirakçıları: professor, müəllim və tələbələr onları maraqlandıran bir sıra suallar verdilər. Ümumiyyətlə, Hacəttəpə Universitetindəki bu çıxışım çox yaddaqalan oldu. Qeyd edək ki, Universitetin ədəbiyyat korpusunda qapılara, dəhlizə mənim fotomu və məruzəmin adı olan elanı yapışdırmışdılar.

Şükrü bəy həmin günün səhəri Universitetin iki nəfər müəllimi ilə birgə mənim üçün xüsusi bir qonaqlıq verdi. Şəhərin mənzərəli yerində gözəl bir salonda keçirilən ziyafətdə episodlardan biri yemək süfrəmizə gətirilən lavaşların üstünə adımın yazılması oldu. Şükrü bəyin mənə qarşı olan bu həssaslığından çox məmnun oldum. Beləcə, bu səfər böyük məmnunluq duyğuları ilə yadda qaldı və davamlı, düşərli oldu. Həmin vaxtdan Halük bəylə tanışlığımız səmimi dostluğa çevrildi və bu dostluq möhkəm elmi əlaqələr üzərində quruldu. Elə həmin ilin (2016) noyabr ayında I Bakı Türkoloji Qurultayının 90 illiyi münasibətilə Dilçilik İnstitutunda və Sumqayıt Dövlət Universitetində beynəlxalq konfranslar keçirildi və mən böyük məmnuniyyətlə Halük bəyi bu mötəbər tədbirlərə dəvət etdim. Halük bəy xanımının xəstəliyinə görə Dilçilik İnstitutundakı konfransa gələ bilməsə də, Sumqayıt Dövlət Universitetindəki tədbirdə iştirak etdi və onun çıxışı böyük maraqla dinlənildi.

2018 və 2019-cu illərdə mən daha iki dəfə Hacəttəpə Universirtetində elmi səfərdə oldum və bu səfərlərdən birincisində (2018-ci il, noyabr) "Orta əsrlər Azərbaycan-türk lüğətlərinin ədəbi dilin zənginləşdirilməsində rolu" mövzusunda məruzə etdim. Tədbirdə Türkiyənin tanınmış dilçi alimi, Türk Dil Qurumunun üzvü

Prof. Dr. Həmzə Zülfüqar və Bilkənd Universitetinin professoru Rasim Özyürək də iştirak etdi. Müzakirələr zamanı hər iki alim məruzədən çox məmnun qaldıqlarını dilə gətirdi. Bu səfərdə də Ş.H.Akalın yenə də mənim üçün böyük qonaqpərvərlik sərgilədi.

2019-cu ilin dekabr ayında baş tutan səfərdə isə Hacəttəpə Universitetinin Ədəbiyyat fakültəsinin tələbələri qarşısında, "Azərbaycan türkcəsinin tarixi və bu günü" mövzusunda çıxış etdim. Səfər zamanı Ş.H.Akalınla bərabər Türk Dil Qurumunun başqanı Prof. Dr. Gürər Gülsevinlə də görüşüb qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etdik.

2019-cu ilin may ayında Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Universitetdə akademik V.Bartoldun 150 illik yubileyinə həsr edilmiş Beynəlxalq konfrans keçirildi. Bu mötəbər tədbirdə də Ş.H.Akalınla eyni bölümdə bərabər iştirak etdik. Qeyd edim ki, Şükrü bəyin çıxışı zamanı mən həmin bölümün sədri idim. Şükrü bəy həmin bölümdə "Türkcədə rusizmlər" mövzusunda çıxış etdi və onun məruzəsi böyük maraqla dinlənildi və müsbət qarşılandı.

Əziz dostum, qardaşım Ş.H.Akalın Azərbaycan sevdalısı, böyük türk dilçi alimidir. Yadımdadır, 2016-cı ildə İctimai televiziya I Bakı Türkoloji Qurultayının 90 illiyi ilə bağlı biz ikimizi verilişə dəvət etmişdi. Veriliş zamanı gənc aparıcı Ş.H.Akalının Azərbaycan dilində necə səlis və sərbəst danışmasına heyran qalaraq bunun səbəbini soruşdu. Həmkarım gülümsəyərək heç nə demədi. Mən isə dedim: Çünki Halük bəy Azərbaycanı ürəkdən sevən bir insandır. Bu səbəbdən də o, dilimizi incəliyinə qədər öyrənibdir və Hacəttəpə Universitetində Azərbaycan türkcəsi fənnini tədris edir.

2018-ci ildə ölkəmizdə görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin 110 illik yubileyi ilə bağlı müxtəlif tədbirlər keçirilirdi. Dilçilik İnstitutunda da yubileylə bağlı tədbirlər oldu və onlardan birində Ş.H.Akalın kollektiv qarşısında çıxış etdi. Həmkarımın çıxışından məlum oldu ki, Hacəttəpə Universitetinin Ədəbiyyat fakültəsində sevimli şairimiz M.Müşfiq dilinin elektron sözlüyü hazırlanır və bu işə onun özü rəhbərlik edir. Bu məsələ tədbir iştirakçıları tərəfindən böyük məmnunluqla qarşılandı. Bax əsl qardaşlıq belə olar: Azərbaycan şairlərinin yaradıcılığını Türkiyədə tədris edir, Azərbaycanda isə Türkiyənin tanınmış şair və yazıçılarının əsərlərini öyrənirlər.

Prof.Dr. Ş.H.Akalına məxsus səciyyəvi cəhətlərdən birini xüsusi olaraq qeyd etmək istəyirəm. Alim dostum hara gedirsə, getsin (istər xarici səfərlərə, istərsə də ölkə daxilindəki tədbirlərə) kiçikhəcmli notbuku onun yol yoldaşıdır. O, istənilən məlumatı bu yol yoldaşından alır və ya ona müəyyən əlavələr edir, yazılar yazır, bir sözlə, istədiyini əldə edə bilir.

Yazımın əvvəlində qeyd etdiyim kimi, Prof. Dr. Ş.H.Akalın bir müddət Türk Dil Qurumunun başqanı kimi məsul vəzifədə çalışmışdır. Görkəmli dilçi alim Türk Dil Qurumuna rəhbərlik etdiyi dövrdə (7 il) bir sıra mühüm layihələri həyata keçirmişdir ki, onlar sırasında Türkçe Sözlük kimi sanballı izahlı lüğətin tərtibi xüsusi yer tutur. 3000 səhifəyə yaxın irihəcmli bu lüğətin 10-cu və 11-ci nəşrlərinin əsas müəlliflərindən biri Prof. Dr. Şükrü Halük Akalındır. Bu məsələ ilə bağlı şahidi olduğum bir incə məqamı diqqətə çatdırmaq istəyirəm. Alim dostumla ilk tanışlığım zamanı ikimiz avtomobildə olarkən (avtomobili Halük bəy özü sürürdü) Türkiyənin Dövlət Televiziya və Radio orqanı olan TRT-də (radioda) hörmətli həmkarımın çıxışını verirdilər. Halük bəy dedi ki, radioda hər gün o, təxminən beş dəqiqə ərzində Türkçəyə daxil olan yeni sözlərin mənşəyi, etimologiyası mövzusunda çıxış edir. Bu, təbii ki, kiçik məsələ deyildi və mən əziz dostuma buna görə öz sevinc və qürur hisslərimi bildirdim.

Qeyd edim ki, bu təcrübənin bizdə – Azərbaycanda da tətbiq edilməsinin ədəbi dilimizin təbliği baxımından olduqca faydalı bir tədbir olacağını düşünürəm. Fikrimcə, belə verilişlərin həm unudulmuş arxaik sözləri və bəzi dialektizmləri, həm də ədəbi dilimizə yeni daxil olmuş sözləri əhatə etməsi məqsədəuyğun olardı.

Qardaş Türkiyənin adlı-sanlı dilçi-türkoloq alimi Prof. Dr. Şükrü Halük Akalın xoş sözlərə, səmimi alqışlara layiq böyük ürək sahibi insandır. Ş.H.Akalın böyük dilçi alim olmaqla yanaşı (hər alimə Türk Dil Qurumunun başqanı kimi yüksək vəzifəni tutmaq nəsib olmur), həm də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin məşhur "Bir millət, iki dövlət" kəlamını gerçəkləşdirən, həyata keçirən alim-şəxsiyyətlərdən biridir. Azərbaycanda Halük bəyi yaxından tanıyan, ürəkdən sevən, ona sonsuz

ehtiram bəsləyən çoxlu sayda alimlər, araşdırmaçılar var. Çox insanın qapısı onun nurlu üzünə açıqdır.

Prof. Dr. Şükrü Halük Akalın xoşbəxt insandır, çünki xalqın varlığı, ən böyük milli-mənəvi sərvəti olan dilini yaşadır, onun keşiyində dayanır. Belə insanlar özləri də bilmədən böyük işlər görürlər. Azərbaycan sevdalısı, böyük dilçi-türkoloq qardaşım Prof. Dr. Şükrü Halük Akalın belə böyük insanlardan, tanınmış ziyalılardan biridir.

Əziz dostum Prof. Dr. Şükrü Halük Akalını 65 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları diləyirəm.

65 yaşın mübarək, Azərbaycan sevdalısı Prof. Dr. Şükrü Halük Akalın! Həyatda hər şey könlüncə olsun, sevgili qardaşım Halük bəy! Yeni-yeni uğurlara imza atasan! Nurlu simandan təbəssüm əksik olmasın!

*Akademik* **MÖHSÜN NAĞISOYLU**